**UOT:75.**

# FƏZANIN RƏSMDƏ VƏ RƏNGKARLIQDA TƏSVİRİ

***dosent Hüseynov Akif Əlirza oğlu***
***Gəncə Dövlət Universiteti***
***gceferova@rambler.ru***

**Xülasə:** *Tələbələrin təsviri sənət fənləri üzrə bilik və bacarıqların təhlili göstərir ki, onların arasında öz ixtisasını sevən, onun incilərini dərindən mənimsəməyə çalışan qabiliyyətli tələbələr vardır. Bununla yanaşı təsviri sənətə və müəllimlik peşəsinə davamlı marağı olmayan tələbələrdə vardır. Belə ki, tələbələrin rəsm və rəngkarlıq sahəsindəki bilikləri səthi, natamam olub, çox zaman praktik bacarıqlara çevrilə bilmir.*

*Məhz buna görə də ali məktəblərdə təsviri incəsənət müəllimliyi iztisası üzrə təhsil alan tələbələr bu sahədə çalışmalı, rəsmin və rəngkarlığın işlənməsinin sirlərini daha dərindən öyrənməlidirlər.*

*Müasir zamanda isə rəsm, rəngkarlığın nəzəriyyəsini bir tədris fənni kimi ali məktəblərdə keçirilməsi zəruridir. Çünki bir tərəfdən tələbələrin dünya görünüşünü formalaşdırır, ictimai və fərdi sərbəstliyini təmin edir, digər tərəfdən isə təcrübə texnikasını artırır, üsul və vasitələrdən istifadə etmə qabiliyyətini təkmilləşdirir.*

**Açar sözlər**: ellips-dairəvi masanın səthi, trapesiya-kvadrat masanın səthi, perspektiva-mənzərənin uzaqdan görünüşü, abris-çevrə, kontur

**Ключевые слова:** эллипс-поверхность круглого стола, трапеция квадратная поверхность стола, перспектива-дистанционный просмотр пейзажа, абрис-круг, контур

**Key words:** ellipse-the surface of the round table, trapezoid-square table surface, perspective-remote viewing of the landscape, outline-circle, contour

Ali məktəblərdə təsviri incəsənət müəllimliyi ixtisası üzrə təhsil alan tələbələr üçün vacib xüsusiyyətlərdən biri də odur ki, ətraf mühiti dərk edib kətan səthində təsvir etməyi bacarsınlar. Rəsm və rəngkarlığın işlənməsi sahəsində tələbələrin tərbiyə məsələsi bədii tərbiyənin ən mürəkkəb və çətin məsələsidir.

Məhz buna görə də ali məktəblərdə təsviri incəsənət müəllimliyi iztisası üzrə təhsil alan tələbələr bu sahədə çalışmalı, rəsmin və rəngkarlığın işlənməsinin sirlərini daha dərindən öyrənməlidirlər.

Tələbələrin təsviri sənət fənləri üzrə bilik və bacarıqların təhlili göstərir ki, onların arasında öz ixtisasını sevən, onun incilərini dərindən mənimsəməyə çalışan qabiliyyətli tələbələr vardır. Bununla yanaşı təsviri sənətə və müəllimlik peşəsinə davamlı marağı olmayan tələbələrdə vardır. Belə ki, tələbələrin rəsm və rəngkarlıq sahəsindəki bilikləri səthi, natamam olub, çox zaman praktik bacarıqlara çevrilə bilmir.

Bu problemin həlli üçün pedaqoji və sənətkarlığa aid bir çox ədəbiyyatlar nəzərdən keçirilməlidir.

Gənc nəslin estetik dünya görünüşünün formalaşmasına, təsviri incəsənət müəllimi kimi kadrların hazırlanmasına Ş.Məmmədov, M.Abdullayev, Q.Beda, T.Salahov, Ə.Verdiyev, T.Nərimanbəyov və başqalarının əsərlərinə və pedaqoji fəaliyyətlərinə böyük diqqət yetirilməlidir.

Müasir zamanda isə rəsm, rəngkarlığın nəzəriyyəsini bir tədris fənni kimi ali məktəblərdə keçirilməsi zəruridir. Çünki bir tərəfdən tələbələrin dünya görünüşünü formalaşdırır, ictimai və fərdi sərbəstliyini təmin edir, digər tərəfdən isə təcrübə texnikasını artırır, üsul və vasitələrdən istifadə etmə qabiliyyətini təkmilləşdirir.

Gözümüzün, görmə qabiliyyətimizin bir çox cəhətləri vardır. Məs: yaxın əşyaları uzaq məsafədə olanlardan böyük görürük.

Dəmir yolu relsləri uzaqlaşdıqca sanki birləşir, qarlı dağlar sanki qarşıdakı təpədən sonradır, teleqraf dirəkləri getdikcə kiçilir, hətta nöqtəyə dönür.

Başqa misal: Uzaq məsafədə olan əşyalar, tikintilər və s. öz həcmi əhatəsini itirir və səthi düz görünürlər. Realist rəssamların əsərlərində əşyaların fəzada yerləşməsinin son dərəcə gözəl təsvir edilməsini biz çox görmüşük. Həqiqətin tam təsvir edilməsinə nail olmaq üçün daim müşahidə etmək, gördüklərimizi müqayisə etmək və görmə qabiliyyətimizin xüsusiyyətlərini bilmək, dərk etmək lazımdır.

Dairəvi masanın səthi – ***ellips,*** kvadrat masanın səthi – ***trapesiya*** kimi görünür. Baxış xəttindən aşağı olduqda, düz bucaqlar sanki yuxarı qalxan, baxış xəttindən yuxarı olduqda isə aşağı düşən kimi görünürlər. Otaqda bizə elə gəlir ki, tavan aşağı gəlir, yaxud karniz və plintuslar yaxınlaşır və s. həqiqətdə gördüyümüz (naturada) əşyaların fəzada yerləşməsini düzgün təsvir etməyə kömək edən elmə ***perspektiva*** (mənzərənin uzaqdan görünüşü) deyilir.

Perspektiva qanunları üzərində dahi rəssamlar, sənətkrlar işləmişlər.

Bizim gözümüz əşyaları $53^0$ bucaq altında görür. Əşya ilə gözümüz arasında yaranan xəttlərə ***baxış şüaları*** deyilir. Əks şüa mərkəzdə yerləşir və baxış bucağını iki hissəyə, bərabər hissəyə bölür. Biz gördüyümüz əşyalar yığımı baxış sahəsini təşkil edir. Əlbətdə, yaxın məsafədə biz az əşya, uzaq məsafədə isə nisbətən çox əşya görürük. İki gözlə görükdə biz əşyanı yek, bütöv, həcm kim dərk edirik. Sağ yaxud sol gözlə baxdıqda isə əşyanı yalnız birtərəfli görürük. Əlbətdə, mərkəzdə yerləşən əşyaları kənardakılara nisbətən daha aydən görürük.

Perspektiva elmində rəssamın mənzərəni müşahidə etdiyi yerə ***baxış nöqtəsi deyilir.*** İş zamanı kağız üzərinə əyildikdə mənzərə ilə tablo üzərində olan uyğunluğu, tənasüblüyü ***düzgün duymaq,*** görmək olmur. Ona görə iş zamanı düz durmaq lazımdır.

Tələbə elə yer, elə nöqtə seçməlidir ki, vəziyyətini dəyişmədən işləyə bilsin, naturanıbütöv bir baxışla əhatə etsin. Kağız, yaxud kətan, baxış istiqamətinə perpendikulyar olmalıdır. Təsəvvür edək ki, pəncərədən baxırıq.

Pəncərə ilə məhdud olunan sahə, mənzərə ***şəkil sahəsi*** adlanır. Əsas şüa şəkil sahəsinin ortasından keçməlidir. Onun istiqamətini müəyyən etmək üçün qələmi göz qabağında elə saxlamaq lazımdır ki, onun 6 künclüyü görünsün. İşləməzdən əvvəl tələbə üfüq xəttini müəyyən etməlidir. Əgər təpələr, çay, ağac, tikintilər üfüq xəttini örtürsə, su ilə dolu stəkanı göz önünə gətirib, elə saxlamaq lazımdır ki, su səthi düz xətt kimi görünsün.

Üfüq xətti aşağıdan, yaxud yuxarıdan görünən əşyaların, sərhəddini bildirir. Üfüqə maili olan xəttlər üfüq xəttindən aşağı yaxud yuxarı bir nöqtədə yığılır. Üfüqdən yuxarı olan nöqtələr – hava, aşağı nöqtələr isə - yer nöqtələri adlanır. Şəkil sahəsinə perpendikulyar xəttlər yaxınlaşan və kəcişən (fərz edilir A nöqtə - məqkəzi, əsas kəsişmə nöqtəsi adlanır) və P ilə işarə olur . Bu nöqtə baxış nöqtəsinin rəsmə olan proyeksiyasıdır. $45^0$ bucaq altında olan üfüqü xəttlər, P nöqtəsindən bərabər məsafədə aralı olur və $D_1$, $D_2$ ilə işarə olunur.

Bir çox hallarda, ilk növbədə tikinti, yaxud otaqları təsvir etdikdə, düz bucaqlar, kvadrat və kub formalı əşyaları frontal vəziyyətdə göstərmək lazım gəlir. Frontal vəziyyət şəkil sahəsinə paralel vəziyyət hesab edilir.

Təsəvvür edək ki, gördüyümüz kvadratdan tədricən uzaqlaşırıq. Bu zaman, uzaqlaşan kvadrat yanları proyeksiyası mərkəzi kəsişmə nöqtəsinə yönəlir. Kvadrat sahəsi bu zaman trapesiya kimi görünür.

Bir tərəfi bizə yönələn kuba baxdıqda biz onu dəyişilməmiş görürük. Kubun yanlarını biz üfüqü və şaquli xətləri kimi görürük. Ancaq elə hallar da olur ki, əşyalar müəyyən bucaq

altındadır. Bu zaman kvadrat formanın yan xəttləri sanki qısalıb və kəsişmə nöqtəsinə yönəliblər. Kvadrat, demək olar ki, qeyri – bərabər yanları olan dördbucaqlı kimi görünəcək.

Kvadratın düz bucaqları isə ikisi iti bucaq, digər ikisi isə küt bucaq kimi görünür.

Əgər kubu şəkil səthi əsas oxunda yerləşdirsək, kubun görünən yan xəttləri bərabər miqdarda kiçik, kəsişmə nöqtələri orta, mərkəzi oxdan eyni məsafədə yerləşir. Bu zaman kəsişmə nöqtələri uzaqlaşma nöqtələri adlanır. Mənzərənin quruluşunu dəqiqləşdirmək üçün kəsişmə nöqtəsi kimi, uzaqlaşma nöqtəsi də əhəmiyyətlidir.

Rəssamlar rəsm əsəri yaratdıqda tez – tez çevrəni, yaxud silindrik əşyaları təsvir etməli olurlar. Əgər stəkanı gözümüz səviyyəsinə qaldırsaq, yaxud ondan aşağı salsaq onun altını ellips şəkilli, hətta üfüq xəttindən aşağı olduqda nisbətən enli elllips şəklində görərdik. Yadda saxlamaq lazımdır ki, silindri çəkdikdə ellipsin böyük radiusu həmişə fırlanma perpendikulyardır. Baxış nöqtəsini seçdikdə bilmək lazımdır ki, məsafədən asılı olaraq obyektlər öz görünüşünü dəyişir. Rəssamlığa başlayanlar baxış nöqtəsini əksər hallarda yaxud seçirlər, bu isə müəyyən səhvlərə gətirir. Eyni ilə çox uzaqdan baxmaq da səhvlərə səbəb olur. Küçələrin və çayların təsviri zamanı, onların uzaqlaşdıqca ensizləşməsi, perspektiva tələbidir, qanunudur.

Binaların, pəncərələrin, dirəklərin və s. kiçilməsi müvafiq olmalıdır.

**Kölgələr nəzəriyyəsi haqqında ilkin məlumat**

Əşyalar üzərinə işıq mənbəyindən şüalar düşürsə, əşyalar işıqlanmış sayılır. Hava mühitində işıq şüaları düz xəttlə istiqamətlənir. İşıq səmtində olan sahə işıqlanmış, əks tərəflər isə kölgədə olurlar.

Əşyanın işıqlanması işığın parlaq olmasından, şüaların düşmə bucağından və əşya səthinin xüsusiyyətlərindən asılıdır.

Kölgələr əşyanın özününkü və onun üzünə düşən olur.

Əşyanın işıqlanmayan tərəfi əşyanın öz kölgəsi adlanır. İşıq – kölgə sərhədi daha da qaranlıq olur.

Əşya üzərinə düşən şüadan alınan kölgə, əşyanın işıq mənbəyindən aralı sahəyə atdığı kölgəyə deyilir. Əşya üzərinə düşən şüadan alınan kölgə sərhədi, əşyanın formasından və sahənin, səthin xüsusiyyətindən asılıdır.

Sənətkarların işlərində bu növ kölgələr qara, yaxud tünd batıq kimi deyil, hətta (tünd boyalarla çəkilməsinə baxmayaraq) şəffaf görünürlər. Məsələn, M.Abdullayevin “Uşaq dalınca”, “Rəfiqələr”, “Hospitala”, “Əsgər”, “Pambıq” əsərləri misal ola bilər.

Adətən əşyanın öz kölgəsi əşya üzərinə düşən şüadan alınan kölgədən açıq olur (işıq gücünə görə).

Relyefin, rəng və boya keçidləri, çalarları ilə göstərilməsi zamanı işıqlı və kölgəli tərəflər unudulmamalıdır. Həm də qeyd edək ki, bunlar hamısı əşyanın həcmi formasını təsvir etmək üçün vasitədir.

Rəsmdə kölgələrin göstərilməsi işıq mənbəyindən (günəş, ay və süni şüalar) asılıdır. Günəş və ay işığı şüaları (planetlər uzaq olduğuna görə) demək olar ki, paralel gəlir. Süni işıq mənbəyi isə yaxındır. Şüalar radial (yəni radiysa paralel) yayılır.

Naturadan işlədikdə işıq mənbəyinin vəziyyətini dəyişmək olmaz, çünki o zaman kölgələrin vəziyyəti dəyişir. Günəş işığında işlədikdə, çəkdikdə, kölgələrin baxış nöqtəsini seçmə ilə eyni vaxtda qeyd edirlər, sərhədləri müəyyənləşdirirlər, çünki kölgələr də günəşlə sürünür.

Beləliklə, qeyd edək ki, qayda belədir: kölgələrin yerləşməsini baxış nöqtəsi ilə bir vaxtda müəyyən etmək lazımdır.

İlkin kompazisiyalarda tələbələr kölgələrin yerləşməsini sərbəst təsvir edirlər, yəni istədikləri kimi, ancaq kölgələr nəzəriyyəsini bilmək olduqca vacibdir.

**Kölgələr təbii işıqlanmada**

Günəş şüaları paralel olduğuna görə, onların istiqamətləri rəsmdə paralel düz xəttlərin vasitəsi ilə kompazisiya perspektivini yaratma qaydalarına uyğun olmalıdır.

Əşya üzərinə düşən şüadan alınan kölgəni təsvir etmək üçün səthin vəziyyətini və onun üzərinə düşən şüanın istiqamətini nəzərdə saxlamaq lazımdır. Əgər səth işıq şüalarına perpendikulyardırsa, əşya üzərinə düşən şüadan alınan kölgənin sərhədləri əşyanın abrisini təkrar edəcəkdir.

Abris – çevrə, kontur deməkdir. Əgər səthinə düşən şüalar iti bucaq altındadırsa, kölgələr öz sərhədini dəyişər, xeyli uzunsov olarlar. Perpendikulyar şüalar daha parlaq, daha şəffaf işıqlanma verirlər. Bucaq altında düşən şüalar isə işıq qüvvəsi intensivliyini nisbətən az miqdarda verirlər. Günorta günəş şüaları perpendikulyar olduğu üçün əşyaların kölgələri ən gödəkdir. Günəş qürub etdiyi zaman isə kölgələr uzundur, həm də işıq intensivliyi azdır, çünki şüalar bucaq altında düşür.

İşıq mənbənin vəziyyətindən asılı olan bir neçə səciyyəvi misala müraciət edək:

**1.**Işıq mənbəyi yandan işıq saldıqda, (işıq mənbəyi günəş rəsmdə özü görünmür) şüalar rəsm səthinə paralel olur, günəş şüaları proyeksiyası isə şəkilin oturacağına paralel olur. Düşən kölgələrin sərhədini müəyyən etmək üçün əşyaların özümlü ilə üfüqi xətt kölgələrin düşəcəyi istiqamətində çəkilir. Əşyaların yuxarı nöqtələrindən isə (günəş şüaları bucağına uyğun) xətlər çəkib proyeksiya ilə kəsişən yerdə, kölgələrin sərhədini təyin etməyə imkan verir.Günəşin, solda, sağda olmasına misallar.

Məsələn, T.Salahovun “Səhər eşalonu”, “Qladiosi”, “Bəstəkar Qara Qarayevin portreti”, “Pəncərə. Moskva şəhəri”, “Bəstəkar Fikrət Əmirovun portreti”, “Rəsul Rzanın portreti” misal ola bilər.









**2.**Günəş tamaşaçının qarşısında hər hansı bir yüksəklikdə olduqda, biz əşyaların işıqlanan və işıqlanmayan hissələrini görürük. Düşən şüalar isə tamaşaçı istiqamətindədir. İşıq mənbəyi proyeksiyası üsə üfüqi xəttindədir, şüaların kəsişmə nöqtəsi isə (yeni günəş) üfüq xəttindən yuxarıda olur.

Polenovun "Moskva məhəlləsi" rəsmi, T.Salahovun "Günəşli səhər", M.Abdullayeüvin "Sevinc", "Pambıq" əsərləri buna misal ola bilər.













**3.**Günəş tamaşaçıdan arxada olduqda isə əşyaların işıqlanan tərəfləri görünür. Məsələn:T.Salahov “Nardaranda məsçid”, K.F.Yuon “Mart günəşi” rəsmi.



Günəş arxa və sol tərəfdədir. Budaqların kölgəsi kəsişmə nöqtəsinə yönəlib. 0 nöqtə üfüqi xəttindən hündürdür. Günəş çoxda hündürdə deyil, bunu günəş şüasının maili düşməsi ilə təyin etmək mümkündür. Atlıların kölgəsi nə nəzər salaq. Kölgələrin istiqaməti yerin relyefini bildirir. Kölgələrin abrisi, atlıların silueti ilə eynidir.

Əgər bir neçə işıq mənbəyi vardırsa, ikiqat, üçqat kölgələr əmələ gəlir. Məsələn: V.V.Pukirevin “Qeyri – bərabər nikah”əsəri buna misal ola bilər.



**Güzgü əksi.**

Rəssamları, ilk növbədə, təbiət mənzərəsi çəkənləri tez – tez çay, göl, dəniz sahilində suyun əks etdirməsi cəlb edir.

Güzgüdə əksi təsvir etmək üçün bir neçə kitabı üst – üstə yığıb güzgünün qarşısına qoymalı və müxtəlif hündürlükdə olan kitab ların əks olunmasını təsvir etmək lazımdır. Tikinti və ağacların əksini nisbətən qısa çəkmək lazımdır, sahildə əkslərin və kölgələrin sərhədi kəskin kəsildiyini nəzərə almaq lazımdır. Daha sonra – bəzi hallarda əks olunmalar tərsinə aşağıda görünür. Məsələn: ağacın çətiri əks olunanda suyun dərinliyində yəni aşağıda görünür. Dalğalar olduqda əks olunma təkrarlanır.

Demək olar ki, güzgüdə və suda əks olunma eyni qaydalarda baş verir.



Fəza dərinliyini, açıq hava, yaxın – uzaq əşyaları təsvir etdikdə tədricən çalarların yumşaq, ilıq, birçalarlı, birtonlu olmasına nəzər salmaq lazımdır.

Məsələn: Yaxından baxanda ağacların gövdəsi yarpaqların kölgəsinə nisbətən açıq işıqlı görünür.

Meşədən aralandıqca ağaclar yaxınlaşır, eyni çalarlı olur və nəhayət bir zolaq kimi görünür. Məsələn, işlədiyim "Göy - göl" mənzərəsi buna misal ola bilər. Biz əvvəl, xətti perspektivadan danışanda, dedik ki, uzaqlaşdıqca insan, tikinti və s. kiçilir, səthi görünür. Rəssamlar ilk planda əşya və tikintiləri uzaqlaşan təbiət mənzərəsi fonunda (arxa planı) verdikdə rəsmi sanki geniş, dərinləşmiş təəssüratı bağışlayır.



Yəni, tələbələr unutmamalıdır ki, açıq və tünd rəngli əşyalar tabloda uzaqlaşdıqca fərqli görünür.

Beləliklə, rəsm və rəngkarlıq mədəniyyətinin yüksəldilməsi və tədrisin kifayət qədər ciddi qoyuluşu məsələsi yalnız o vaxt müvəffəqiyyətlə həll edilə bilər ki, gələcək təsviri incəsənət müəlliminin müvəffəqiyyətinin inkişafı üçün möhkəm əsas qoyulmuş olsun.

### *Ədəbiyyat*

1. Бесчатсов Николай Петрович «Светная графика» Учебн. Пособие для студентов вузов. Москва. Гуманитар изд. Центр ВЛАДОС 2014. 176 стр.
2. Билл Мартин «Правила рисования» Минск. Попурин. 2014. 144 стр.
3. И.Головенко. «Техника рисунка» Москва.Эксимо. 2014. 40 стр
4. Питер Грей. «Рисуем пейзажи». Москва. Эксимо. 2015. 48 стр
5. И.А.Сергеевой., А.Й.Бороновиской. «Лучшие уроки. Светы» Москва. АСТ -2015. 80

## ИЛЛЮСТРАЦИЯ ПРОСТРАНСТВА И ЖИВОПИСИ

***Гусейнов Акиф Алирза оглы***

***Резюме***

Анализ предметов изобразительного исскуства показывает, что есть талантливые студенты, которые любят свою профессию и глубоко осваивают его. В то же время есть студенты, которые продолжительно не интересуются изобразительным искусством и педагогической деятельностью. Таким образом, знания студентов в живописи и живописи поверхностны, неполны и часто не могут быть преобразованы в практические навыки.

Вот почему студенты, обучающиеся изображительному искусству преподавания в вузе, должны работать в этой области и постигать секреты живописи.

В наше время необходимо преподавать живопись, теорию живописи как предмет в высшем образовании. Потому что, с одной стороны, он формирует мировоззрение студентов, обеспечивает общественные и индивидуальные навыки, а с другой стороны, улучшает способность использовать технику и методы.

## ILLUSTRATION OF SPACE AND PAINTING

***Huseynov Akif Alirza***

***Summary***

An analysis of the subjects of fine art shows that there are talented students who love their profession and master it deeply. At the same time, there are students who are not interested in the visual arts and teaching activities for a long time. Thus, the knowledge of students in painting and painting is superficial, incomplete and often cannot be converted into practical skills.

That is why students studying the visual art of teaching at a university should work in this area and comprehend the secrets of painting .

Nowadays, it is necessary to teach painting, the theory of painting as a subject in higher education. Because, on the one hand, it forms the students' worldview, provides social and individual skills, and on the other hand, improves the ability to use technique and methods.

***Rəyçi: dosent Əbülfət Əliyev***
***Təsviri incəsənət kafedrasının 20 sentyabr 2022-ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olma tarixi 18 oktyabr 2022-ci il***